# Etimadı doğrultmağın ali nümunəsi



***Ölkəmizdə keçirilmiş sonuncu prezident seçkilərindən sonra Azərbaycan dövləti otuz ilə yaxın düşmən tapdağında inildəyən torpaqlarını siyasi-hərbi yolla əsarətdən qurtararaq, ərazi bütövlüyünün bərpasına nail oldu. Əsrlər boyu uydurma tarix, saxta sənədlər və mifik xəritə ilə dünyanın başını aldatmağa çalışan ermənilərin Azərbaycan ərazisində qurduqları Ermənistan dövləti kapitulyasiya aktını imzalamaqla rəzil vəziyyətə düşdü. Bir zaman sərxoş yadellilərin rəqs etdiyi Şuşada, xarici ekspertlərin "Qafqazın Xirosiması" adlandırdığı Ağdamda, Avropanın "aparıcı" şirkətlərinin qeyri-qanuni olaraq istismar etdiyi Kəlbəcərdə, Seyran Ohanyanın yüz min tonlarla beton tökərək istehkamlar qurduğu Füzulidə Azərbaycan Bayrağı qaldırıldı.***

Həmin seçkidən sonra Dağlıq Qarabağ və işğaldan azad edilmiş ətraf rayonlarda dünya təcrübəsində misli olmayan sürətlə bərpa-quruculuq işləri aparıldı və davam edir. Füzulidən Şuşaya Zəfər yolu, Bakıdan Füzuliyə hava yolu çəkildi. Laçında və Zəngilanda hava limanlarının tikintisi davam edir, Bakı ilə Naxçıvanı, eləcə də Türkiyəni birləşdirəcək Zəngəzur dəhlizinin açılması üçün mühüm şərait yaranıb. Ölkədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb və bu qəbildən olan onlarca, yüzlərlə layihəyə start verilib.

Bütün bunlar Prezident İlham Əliyevin andiçmə zamanı verdiyi vədlərin reallaşdırılmış detallarıdır.

Dövlət başçımız 2018-ci il aprelin 17-də – xalqın etimadını növbəti dəfə qazandıqdan sonra and içərkən demişdi: "Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!"

Fikrimizcə, dövlət başçımızın həmin andı, oradakı vədləri regionda yeni reallıqların yaranmasını təmin etməklə yanaşı, dünyada davam edən ikili standartlar fonunda qətiyyətli və cəsarətli mövqe tutmağın mümkünlüyünü də sübut etdi.

Dövlət başçımız həmin andiçmədə demişdi: "Əlimi Qurani-Şərifə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam".

Cənab Prezident həmin andın nəticəsi olaraq, işğaldan azad edilmiş ərazilərimizdə vəhşi, barbar qonşularımızın dağıtdığı və təhqir etdiyi tarixi-mədəni və dini abidələrimizin, eləcə də, xristian dininə məxsus alban-udi məbədlərinin bərpasına vəsait ayırdı, bərpa-quruculuq işlərinə start verdi. İşğaldan azad edilmiş Şuşada may ayında "Xarıbülbül" festivalının, avqustda isə Vaqif Poeziya Günlərinin keçirilməsi Prezidentin "milli - mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam" vədinin həyata keçirilməsi idi.

"Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm" – deyən İlham Əliyev Bakıda Qələbə Paradının keçirilməsinə, paytaxta düşmən ordudan götürülmüş silah-sursat və hərbi texnikanın nümayiş elətdirdiyi "Qənimətlər Parkı"nın yaradılmasına, Azərbaycanla Türkiyənin müttəfiqlik müqaviləsinin, habelə Azərbaycan, Türkiyə və Pakistan parlamentlərinin fəaliyyətini əlaqələndirən mühüm sənədin imzalanmasına nail oldu.

Dövlət başçımızın həmin andiçməsindən sonra ölkəmiz Qoşulmama Hərəkatına sədrlik etməyə başladı və bilavasitə İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının koronavirusla mübarizəni əlaqələndirmək məqsədi ilə xüsusi sessiyası keçirildi. Yeri gəlmişkən, həmin sessiyada çıxış edən qalib ölkənin müzəffər Ali Baş Komandanı növbəti humanistlik istəyindən qaynaqlanan möhtəşəm qətiyyət nümayiş etdirdi. Belə ki, inkişaf etmiş bəzi ölkələr dünyada istehsal edilmiş vaksinlərin böyük əksəriyyətini almaqla, kasıb ölkələr üçün ağır problem yaradırdılar. Bu məsələni BMT sessiyasının gündəliyinə çıxaran İlham Əliyev bildirdi ki, pandemiya istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrdə zəiflikləri və bərabərsizliyi aşkara çıxararaq, onları daha da kəskinləşdirmiş, habelə yoxsulluğu dərinləşdirərək ən həssas kateqoriyadan olan insanların vəziyyətini daha da ağırlaşdırmışdır. Pandemiya ən yoxsul və zəif vəziyyətdə olan ölkələrə daha çox zərbə vurmuşdur. Qoşulmama Hərəkatı böhranın davam edən fəsadlarının böyük çətinliklə əldə olunmuş nailiyyətləri geri atacağından və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində tərəqqiyə mane olacağından dərin narahatlıq keçirir.

> ***Prezident seçkilərindən sonra mən ərazi bütövlüyümüzün bərpasını qarşıya birinci dərəcəli vəzifə kimi qoymuşdum və biz buna nail olduq. Eyni zamanda, siyasi, iqtisadi, sosial və başqa sahələrdə, o cümlədən xoşagəlməz hallara qarşı mübarizədə də qarşımıza açıq-aydın hədəflər qoyuldu. Biz ardıcıllıqla və məqsədyönlü şəkildə bu hədəflərə çatırıq.***
>
> **Azərbaycan Prezidenti İlham Əliyevin**
> **Yeni Azərbaycan Partiyasının VII qurultayındakı nitqindən**
> **5 mart 2021-ci il**

Prezidentin fikrincə, pandemiya ədalətli və bərabərhüquqlu dünya nizamına nail olmaq üçün mövcud fundamental problemlərin daha da artmasına səbəb olmuşdur. Qoşulmama Hərəkatının 2019-cu ildə Bakıda keçirilmiş 18-ci Zirvə toplantısında da müzakirə edilmiş bu problemlər qlobal maliyyə və iqtisadi böhranın təsirləri, inkişaf etməkdə olan ölkələrin əksəriyyətində resurs qıtlığı və iqtisadi-sosial gerilik, qeyri-bərabər ticarət şərtləri və inkişaf etmiş ölkələrin kifayət qədər əməkdaşlıq etməməsi, onların bəziləri tərəfindən birtərəfli və məcburedici tədbirlərin tətbiqi, habelə gücdən istifadə və ya gücdən istifadə ilə hədələmə və digərlərindən ibarətdir.

Prezidentin bu qətiyyətini və prinsipiallığını yüksək qiymətləndirən ekspertlər yazırlar ki, İlham Əliyevin Qoşulmama Hərəkatına sədrliyi sübut etdi ki, o, təkcə Azərbaycan xalqının yox, həm də 120 ölkə rəhbərliyinin etimadını yüksək səviyyədə doğruldur.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi müddət ərzində kifayət qədər uğurlar var. Ancaq dövlət başçımız deyir ki, biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var. Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var… Xalq-iqtidar birliyi var. Biz ancaq müstəqillik dövründə belə böyük uğurlara nail ola bilərdik. Bu gün müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük xoşbəxtlikdir. Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***